Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir



# İki dəfə Yaşayan Qız

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Janie Forest

Uyğunlaşdıran: Ruth Klassen

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2014 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

Yair Allaha ibadət edən və başqalarına Allahın Sözünü öyrədən Yəhudi din rəhbər idi.  Bir gün Yairin başına dəhşətli bir hadisə gəldi.  Onun on iki yaşında olan yeganə sevimli qızı xəstələndi.  Elə görünürdü ki, heç kim ona kömək edə bilmirdi.  Bu çox pis xəstəlik idi.  Yair qızın öləcəyini bildi.



Yalnız bir şəxs Yairin qızına kömək edə bilərdi. Yair İsanı tapmaq və Onu evinə gətimək üçün yola düşdü. Yair yəqin ki, dindar dostlarının İsanı xoşlamadıqlarını bilirdi. Ancaq Yair buna fikir vermədi.





Yair İsanı insanların əhatəsində gördü. O, İsanın ayaqlarına düşdü.



Ümidsiz adam yalvararaq dedi: “Mənim balaca qızım ölüm ayağındadır”. “Gəl əlini onun üzərinə qoy, o sağalsın və yaşasın”.



İsa Yair ilə getdi. Amma onlar böyük izdihama görə tez hərəkət edə bilmədilər. Bir qadın on iki il idi ki, xəstə idi. O, heç bir kömək əldə etmədən həkimlərə getmiş və pullarını xərcləmişdi. Ah, o, İsanı necə də görmək istəyirdi!



Qadın nə edə bilərdi?  Qadın donquldandı: "Əgər Onun paltarına toxunsam, sağalacağam". O, İsaya doğru getdi.  Sonra əlini uzatdı, o, İsanın paltarının ətəyinə toxundu.



MÖCÜZƏ! MÖCÜZƏ! Qadın sağaldı. Dərhal! Tamamilə! O şəfa aldığını, güclü və sağlam olduğunu bildi. Amma bu vaxt səs gəldi. İsa soruşdu: “Kim Mənə toxundu?” İzdiham Ona toxunurdu. Ancaq şəfa alan qadın bilirdi ki, İsa qadından bu haqda danışmasını istəyirdi. Titrəyərək, o, İsaya bütün hekayəni danışdı.



Elə həmin an Yairin evindən qulluqçular gəldilər.  Onların üzləri, yəqin ki, ağızlarını açmamışdan əvvəl kədərli hekayəni danışmışdı.  Onlar Yairə dedilər: “Sənin qızın öldü!”  Artıq çox gecdir.  Bəlkə, bu qadın gecikdirməsəydi… bəlkə, əgər… Ölü!  Yairin balaca gözəl qızı ölmüşdü.





İsa bunu eşidəndə cavab verdi: “Qorxmayın; yalnız iman edin və o sağalacaq”.  Yair üçün, həqiqətən, İsaya inanmaq yəqin ki, çox çətin idi. Onun qızı ölmüşdü.

Evdə hamı qız üçün ağlayıb nalə çəkirdi.  İsa onlara dedi: “O ölməyib, sadəcə yatıb”.  Onlar Ona güldülər.  Onlar qızın öldüyünü bilirdilər.



İsa onların hamısını bayıra çıxartdı, qızın əlindən tutdu və dedi: "Qızcığaz, qalx".



Yair orada idi. Onun arvadı orada idi. İsanın üç şagirdi orada idi. Onların hamısı İsanın sözlərini eşitdilər. Ölmüş qızcığaz da onları eşidəcəkmi?



Ölmüş qızcığaz İsanın əmrini eşitdi!  Onun ruhu bədəninə qayıtdı və dərhal qalxdı. İsa onu ölülərdən diriltdi.



Qızın valideynləri mat qaldılar.  İsa dedi ki, qıza yemək versinlər.  Onlar yəqin ki, necə xoşbəxt idilər; İsaya necə minnətdar idilər.  Onun gözəl sevgisi və qüdrəti onların qızını ölümdən həyata qaytardı.



İki dəfə Yaşayan Qız

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

Mark 5, Luka 8

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**